AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 31.08.2017 |
| Qeydiyyat nömrəsi | 28 |
| Adı | “Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası”nın təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 19.09.2017 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.060.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 23201708310028 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 18.09.2017 |

“Kredit büroları haqqında” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1145 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 828 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi”nin 5.3.2-ci yarımbəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurası

**QƏRARA ALIR:**

**1.** “Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Baş icraçı direktora (İbrahim Alışov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Direktorlar Şurasının sədri** **Rüfət Aslanlı**

**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Maliyyə Bazarlarına Nəzarət Palatası
Qərar 28
31 avqust 2017-ci il
**Direktorlar Şurasının sədri**
________________
**Rüfət Aslanlı**

## Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası

### 1. Ümumi müddəalar

Bu Qayda “Kredit büroları haqqında” Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1145 nömrəli Fərmanının 4.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və kredit tarixçəsi subyektinin razılığının

alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi qaydasını müəyyən edir.

## 2. Əsas anlayışlar

Bu Qaydada istifadə edilən "kredit bürosu", "kredit tarixçəsi", "kredit tarixçəsinin subyekti", "kredit hesabatı", "məlumat təchizatçısı" və "məlumat istifadəçisi" anlayışları "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra - Qanun) onlar üçün müəyyən edilmiş mənaları daşıyır.

## 3. Kredit tarixçəsi subyektinin razılığının alınması

3.1. Məlumat təchizatçıları tərəfindən kredit bürosuna kredit tarixçəsinin tərtib edilməsi üçün neqativ və pozitiv məlumatların təqdim edilməsi və kredit büroları tərəfindən məlumat istifadəçilərinə kredit tarixçələrini təşkil edən məlumatların təqdim edilməsi bu Qaydanın 3.5-ci, *3.6-cı, 3.7-ci və 3.7-1-ci* bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, kredit tarixçəsi subyektinin yazılı (o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında) razılığı əsasında həyata keçirilir.[1]

3.2. Kredit tarixçəsi subyektinin yazılı razılığında əks olunan məlumatlar Qanunla müəyyən edilir. "Kredit tarixçəsinin tərtib edilməsi üçün məlumatların kredit bürosuna təqdim edilməsinə və ya kredit bürosundan kredit hesabatının əldə edilməsinə Razılıq ərizəsi"nin (bundan sonra – Razılıq ərizəsi) forması bu Qaydanın əlavəsində müəyyən edilir. Razılıq ərizəsində "Toplanılmasına və işlənilməsinə razılıq verilmiş məlumatlar" bəndi üzrə "Kredit tarixçəsi subyektinin qeyd etdiyi məlumatlar" xanası seçildikdə, həmin məlumatlar Razılıq ərizəsinin kredit tarixçəsinin subyekti tərəfindən imzalanan əlavəsində göstərilir. Məlumat təchizatçısı və ya məlumat istifadəçisi kredit təşkilatı olduqda, Razılıq ərizəsində "Toplanılmasına və işlənilməsinə razılıq verilmiş məlumatlar" bəndi üzrə "Bütün məlumatlar" xanası seçilməlidir.

3.3. Kredit tarixçəsi subyekti tərəfindən Razılıq ərizəsi imzalandığı andan etibarən məlumat istifadəçisi və ya məlumat təchizatçısı tərəfindən kredit tarixçəsi subyektinin yazılı razılığının alınması təmin edilmiş hesab olunur.

3.4. Məlumat təchizatçıları və istifadəçiləri yazılı razılıq alarkən kredit tarixçəsinin subyektinə özlərinin Qanunla müəyyən olunmuş vəzifələri və kredit tarixçəsi subyektinin Qanunla müəyyən olunmuş hüquqları barədə ətraflı məlumat verir və bu barədə Razılıq ərizəsində müvafiq qeyd aparır.

*3.5. Qanunun 14.0.1-ci maddəsinə uyğun olaraq Qanunun 12.2.5-ci maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən və bu Qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda məlumatlar, 12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən neqativ məlumatlar kredit tarixçəsi subyektinin razılığı alınmadan verilməlidir.*[2]

3.6. Qanunun 14.0.2-ci maddəsinə uyğun olaraq kredit bürosu rəsmi nəşrlərdə, rəsmi informasiya resurslarında və digər rəsmi mənbələrdə ümumi istifadə üçün açıq olan məlumatları kredit tarixçəsinin subyektinə aid hissədə kredit tarixçəsi subyektinin razılığı olmadan kredit tarixçəsinə daxil edə bilər.

3.7. Qanunun 14.0.2-ci maddəsinə uyğun olaraq kredit tarixçəsinin subyekti, *icraatlarında olan işlərlə əlaqədar* məhkəmə, istintaq və təhqiqat orqanları, məcburi icra orqanı, əməliyyat-axtarış fəaliyyətinin subyektləri, nəzarət orqanı (kredit tarixçəsi subyektinin nəzarət orqanına daxil olmuş şikayətin araşdırılması üçün), notariuslar (borc müqavilələrinin, vəsiyyətnamələrin təsdiqi və vərəsəlik işləri üzrə), kredit tarixçəsi subyektinin vərəsələri (varisləri) tərəfindən kredit tarixçəsini təşkil edən məlumatın kredit bürosundan alınmasına kredit tarixçəsi subyektinin razılığı tələb olunmur.[3]

*3.7-1. Qanunun 14.0.2-ci maddəsinə uyğun olaraq, kredit təşkilatları aralarında hüquq münasibətləri 2018-ci il aprelin 1-dək yaranmış cari borcalanlar olan kredit tarixçəsi subyektlərinin kredit hesabatını onların razılığı alınmadan əldə edə bilərlər.*[4]

3.8. Qanunun 15.6-cı maddəsinə uyğun olaraq kredit tarixçəsinin subyekti vəfat etdikdə, ölmüş elan edildikdə, xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, habelə yetkinlik yaşına çatmadığı, özü razılıq vermək iqtidarında olmadığı hallarda Qanunla tələb olunan razılıq müvafiq olaraq onun vərəsələri, qanuni nümayəndələri, valideynləri və ya himayəçilərindən biri tərəfindən verilir. Bu halda müvafiq olaraq vərəsənin, qanuni nümayəndənin, valideynin və ya himayəçinin, şəxs səlahiyyətli nümayəndəsi vasitəsilə razılıq verdikdə isə səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənədlər təqdim edilməlidir.

## 4. Razılığın alınması faktının kredit bürosu üçün təsdiqi

4.1. Məlumat təchizatçısı tərəfindən kredit bürosuna kredit tarixçəsini təşkil edən məlumat Qanunun 17.4-cü maddəsinə uyğun olaraq elektron formada təqdim edilir. Məlumat təchizatçısı tərəfindən kredit bürosuna məlumat kredit bürosu sisteminin müvafiq məlumat yükləmə vasitələri ilə birbaşa və ya Qanunun 17-ci maddəsində nəzərdə tutulmuş qaydada "Elektron hökumət" portalı vasitəsilə təqdim edilir.

4.2. Məlumat istifadəçisi tərəfindən kredit hesabatının kredit bürosundan alınması üçün müraciət məlumat istifadəçisinin yazılı (o cümlədən, gücləndirilmiş elektron imzalı elektron sənəd formasında) müraciəti və kredit bürosu sisteminin müvafiq sorğu vasitələri ilə birbaşa müraciəti vasitəsilə edilə bilər.

4.3. Kredit bürosu tərəfindən məlumat istifadəçisinə kredit hesabatı bu Qaydanın 4.2-ci bəndində qeyd edilmiş müvafiq müraciət üsullarına uyğun olaraq təqdim edilir.

4.4. Kredit tarixçəsini təşkil edən məlumatın kredit bürosuna birbaşa təqdim edilməsi və kredit hesabatının kredit bürosundan birbaşa alınması zamanı Razılıq ərizəsində qeyd edilmiş kredit tarixçəsi subyektinin məlumat mübadiləsinə münasibətini əks etdirən məlumatları və borc öhdəliyi ilə bağlı olmayan

hallar üzrə razılığın qüvvədə olma müddətini qeyd etmək üçün kredit bürosu sistemində müvafiq xanalar olmalıdır.

4.5. Kredit tarixçəsi subyektinin yazılı razılığı alındıqdan sonra məlumat təchizatçısı və ya istifadəçisi kredit bürosu sisteminə bu Qaydanın 4.4-cü bəndində göstərilmiş xanalar üzrə müvafiq məlumatları təqdim etdikdə yazılı razılığın alınması faktını kredit bürosu üçün təsdiqləmiş hesab olunur.

4.6. Məlumat istifadəçisi tərəfindən kredit hesabatının kredit bürosundan alınması üçün yazılı (o cümlədən, gücləndirilmiş elektron imzalı elektron sənəd formasında) müraciət edildikdə, məlumat istifadəçisi Razılıq ərizəsinin surətini (o cümlədən, gücləndirilmiş elektron imzalı elektron sənəd formasında müraciət edilərkən elektron surətini) müraciətə əlavə edir.

4.7. Məlumat istifadəçisi tərəfindən kredit hesabatının kredit bürosundan alınması üçün Qanunun və bu Qaydanın tələblərinə cavab verən formada hazırlanmış yazılı (o cümlədən, gücləndirilmiş elektron imzalı elektron sənəd formasında) müraciət kredit bürosuna daxil olduqda məlumat istifadəçisi yazılı razılığın alınması faktını kredit bürosu üçün təsdiqləmiş hesab olunur.

4.8. Məlumat təchizatçısı və ya istifadəçisi tərəfindən razılığın alınması faktı kredit bürosu üçün təsdiqləndikdən sonra kredit bürosu Razılıq ərizəsinin şərtləri nəzərə alınmaqla məlumat təchizatçısı tərəfindən təqdim edilmiş kredit tarixçəsini təşkil edən məlumatları qəbul edir və ya kredit hesabatını məlumat istifadəçisinə təqdim edir.

4.9. Məlumat təchizatçısı və ya məlumat istifadəçisi tərəfindən razılığın alınması faktı kredit bürosu üçün təsdiqlənmədiyi təqdirdə kredit bürosu məlumat təchizatçısı tərəfindən təqdim edilmiş kredit tarixçəsini təşkil edən məlumatları qəbul etməkdən və ya kredit hesabatını məlumat istifadəçisinə təqdim etməkdən imtina edir.

4.10. Kredit tarixçəsi subyektinin razılığının alınması tələb edilmədiyi hallarda kredit tarixçəsini təşkil edən məlumatın kredit bürosuna təqdim edilməsi və ya kredit hesabatının kredit bürosundan alınması kredit tarixçəsi subyektinin razılığının alınması faktı kredit bürosu üçün təsdiq edilmədən bu Qaydanın 4.1-4.3-cü bəndlərinə uyğun olaraq həyata keçirilir.

Məlumat təchizatçısının və ya istifadəçisinin eyniləşdirmə məlumatları daxil edilən sahə

"Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası"na
**Əlavə**

**Kredit tarixçəsinin tərtib edilməsi üçün məlumatların kredit bürosuna təqdim edilməsinə və ya kredit bürosundan kredit hesabatının əldə edilməsinə**

**RAZILIQ ƏRİZƏSİ**

**Fiziki şəxs üzrə**

| Fiziki şəxsin eyniləşdirmə məlumatları: | |
|---|---|
| Adı, soyadı, ata adı | |
| Sənədin seriyası və nömrəsi | |
| Sənədin FİN kodu | |
| VÖEN-i (əgər varsa) | |
| Şəxsin adından çıxış edən səlahiyyətli şəxsin eyniləşdirmə məlumatları: | |
| Adı, soyadı, ata adı | |
| Sənədin seriyası və nömrəsi | |
| Sənədin FİN kodu | |
| Səlahiyyəti təsdiq edən sənədin adı | |

**Hüquqi şəxs üzrə**

| Hüquqi şəxsin eyniləşdirmə məlumatları: | |
|---|---|
| Adı | |
| VÖEN-i | |
| Şəxsin adından çıxış edən səlahiyyətli şəxsin eyniləşdirmə məlumatları: | |
| Adı, soyadı, ata adı | |
| Sənədin seriyası və nömrəsi | |
| Sənədin FİN kodu | |
| Səlahiyyəti təsdiq edən sənədin adı | |

| Razılıq verilən kredit bürosunun məlumatları: | |
|---|---|
| Adı | |
| VÖEN-i | |
| Razılığın verilmə tarixi: | |

| | |
|---|---|
| Razılığın tərtib olunma tarixi | |

| Məlumatın toplanılmasına və işlənilməsinə kredit tarixçəsi subyektinin münasibəti: | |
|---|---|
| Haqqımda toplanmış məlumatların kredit bürosundan əldə edilməsinə | razıyam<br>razı deyiləm |
| Haqqımda toplanan məlumatların kredit bürosuna təqdim edilməsinə | razıyam<br>razı deyiləm |
| Toplanılmasına və işlənilməsinə razılıq verilmiş məlumatlar | Bütün məlumatlar<br>Kredit tarixçəsi subyektinin qeyd etdiyi məlumatlar |
| Məlumatların transsərhəd ötürülməsinə | razıyam<br>razı deyiləm |
| Məlumatların “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununun 11.3-cü maddəsində nəzərdə tutulmuş hallarda başqa kredit bürosuna ötürülməsinə | razıyam<br>razı deyiləm |
| Məlumatın saxlanma müddəti başa çatdıqdan və ya kredit tarixçəsi subyektinin ölümündən sonra | məhv edilsin<br>arxivləşdirilsin |
| Kredit tarixçəsi subyektlərinin ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının qiymətləndirilməsi və kredit tarixçəsinin subyektlərinə fərdi kredit reytinqlərinin verilməsinə | razıyam<br>razı deyiləm |

| Razılığın müddəti və onun geri götürülməsi: | |
|---|---|
| Borc öhdəliyi ilə bağlı olmayan hallar üzrə razılığın qüvvədə olma müddəti və onun geri götürülməsi şərtləri | ________________________<br>(il, ay, gün və s.)<br><br>________________________<br>(şərtlər) |

| Razılığı alınmış şəxsin təsdiq qeydləri: | |
|---|---|
| Razılıq alınarkən məlumat təchizatçısı və ya məlumat istifadəçisinin Qanunla müəyyən olunmuş vəzifələri və mənim hüquqlarım barədə mənə məlumat verilməsini | təsdiq edirəm<br>inkar edirəm |

| Kredit tarixçəsi subyektinin (və ya səlahiyyətli şəxsin) imzası və əlaqə nömrələri: | |
|---|---|
| Telefon: ________________________ | İmza: ________________________ |

*Kredit tarixçəsi subyektinin razılığının sonu*

| Razılığı almış şəxsin adı, soyadı və imzası: | |
|---|---|
| Adı, soyadı: ________________________ | İmza: ________________________ |

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 28 yanvar 2019-cu il tarixli **1951100001** nömrəli Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23201901280001**, **Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 8 fevral 2019-cu il**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 28 yanvar 2019-cu il tarixli **1951100001** nömrəli Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23201901280001**, **Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 8 fevral 2019-cu il**) ilə "Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası"nın 3.1-ci bəndində "**3.6-cı və 3.7-ci**" sözləri "**3.6-cı, 3.7-ci və 3.7-1-ci**" sözləri ilə əvəz edilmişdir.

[2] 28 yanvar 2019-cu il tarixli **1951100001** nömrəli Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23201901280001**, **Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 8 fevral 2019-cu il**) ilə "Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası"nın 3.5-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.5. Qanunun 14.0.1-ci maddəsinə uyğun olaraq Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən neqativ məlumat və kredit təşkilatları tərəfindən Qanunun 23.1-ci maddəsinə uyğun olaraq kredit bürosuna verilmiş məlumatlarda sonrakı dəyişikliklər barədə neqativ məlumat kredit tarixçəsi subyektinin razılığı alınmadan verilməlidir.~~

-

[3] 28 yanvar 2019-cu il tarixli **1951100001** nömrəli Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23201901280001**, **Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 8 fevral 2019-cu il**) ilə "Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası"nın 3.7-ci bəndində "**müvafiq qanunla müəyyən edilmiş hallarda və qaydada**" sözləri "**icraatlarında olan işlərlə əlaqədar**" sözləri ilə əvəz edilmişdir.

[4] 28 yanvar 2019-cu il tarixli **1951100001** nömrəli Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 23201901280001**, **Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 8 fevral 2019-cu il**) ilə "Kredit tarixçəsi subyektinin razılığının alınması və razılığın alınması faktının kredit bürosu üçün təsdiqi Qaydası"na yeni məzmunda 3.7-1-ci bənd əlavə edilmişdir.